Deloitte.

# Deloitte vergi və mühasibatlıq bülleteni

İyul 2023

## Xəbərlər

- **İşsizlikdən sığorta haqqında Qanuna və Sosial sığorta haqqında Qanuna dəyişikliklər edilib** – Dəyişikliklərə əsasən 2023-cü il yanvarın 1-dən etibarən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət sosial müdafiə və işsizlikdən sığorta fondlarının sərbəst vəsaitlərini investisiyaya yönəldə bilər. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanır və onların uçotu ayrıca aparılır. İnvestisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı növbəti büdcə ilinə sərbəst vəsaitin investisiyaya yönəldilən hissəsi kimi keçirilir. Ətraflı məlumat üçün keçid: https://president.az/az/articles/view/59427, https://president.az/az/articles/view/59429
- **Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin müəyyən edilməsi və məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması qaydasında dəyişiklik edilib** – 7 iyun 2023-cü il tarixli dəyişikliyə əsasən orta əmək haqqı hesablanarkən nəzərə alınan ödənclərin siyahısında dəyişiklik edilib. Ətraflı məlumat üçün keçid: https://nk.gov.az/az/senedler/qerarlar/azerbaycan-respublikasi-nazirler-kabinetinin-mezun-7073
- **Azərbaycan Respublikası ilə Yaponiya arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya qüvvəyə minib** - 27 dekabr 2022-ci il tarixində Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə keçirilən tədbirdə imzalanmış Azərbaycan Respublikası ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya 4 aprel 2023-cü il tarixindən etibarən qüvvəyə minib. Ətraflı məlumat üçün keçid: https://president.az/az/articles/view/59559
- **Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş imzalanıb** - İyunun 7-də Slovakiya Respublikasının Bratislava şəhərində Azərbaycan Respublikası ilə Slovakiya Respublikası sərmayəçilərinə əlverişli şəraitin yaradılması və xarici iqtisadi fəaliyyətin təşviq edilməsi üçün Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş imzalanıb. Qeyd edək ki, Saziş hal-hazırda qüvvədə deyil.
- **Media subyektlərinə vergi güzəşti və azadolmaları verilib** – Dövlət başçısı 1 aprel tarixində "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 7 mart 2023-cü il tarixli media subyektlərinə bir sıra vergi güzəşt və azadolmaları verilməsi ilə bağlı Qanunun qüvvəyə minməsi ilə bağlı Fərman imzalayıb. Dəyişikliklərə əsasən 2023-cü il yanvarın 1-dən media subyektlərinin məhz media ilə bağlı fəaliyyətdən əldə etdikləri gəlirləri, o cümlədən reklam gəlirləri, habelə media subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən maddi yardımlar gəlir (mənfəət) və sadələşdirilmiş vergilərdən 3 il müddətinə azad edilib. Eyni qaydada, milli media məhsullarının istehsalının inkişafın sürətləndirilməsi məqsədilə media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi də eyni tarixdən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilib. Bundan əlavə, Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi də 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilib. Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53829
- **Naxçıvan Muxtar Respublikasının Sosial-İqtisadi İnkişafına Dair 2023-2027-ci illər üçün Dövlət Proqramı hazırlanıb** –Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması, bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası həyata keçiriləcəkdir. Proqram əsnasında burada azad iqtisadi zonanın yaradılması planlaşdırılır. Azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcəkdir. Həmçinin hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi Proqramın prioritetləri arasındadır. Bundan başqa, sosial sığorta ödənişlərinin tam və ya qismən dövlət tərəfindən subsidiyalaşdırılması nəzərdən keçiriləcəkdir. Eyni zamanda, üç ölkə ilə sərhəd zonasında yerləşməsi Naxçıvan Muxtar Respublikasına ticarət qovşağı, xüsusilə malların təkrar ixracı (paylaşdırılması) yeri və ya sərhədyanı bazar kimi istifadə üçün əlverişli şərait yaradır. Bu məqsədlə, Naxçıvan Muxtar Respublikasına gətirilən bütün malların (siyahı üzrə Azərbaycan Respublikasında istehsal olunan mallar istisna olmaqla) idxal rüsumundan azad olunması, habelə Naxçıvan şəhərində malların xarici ölkə vətəndaşlarına vergi və gömrük nəzarəti altında idxal rüsumları və əlavə dəyər vergisi olmadan satılması üçün orada Ticarət Mərkəzinin yaradılması həmçinin prioritetlər arasındadır. Ətraflı məlumat üçün keçid:

  https://static.president.az/upload/Files/2023/06/05/1a6746ea89383ebdc443607715fa54be_4363375.pdf
- Azərbaycan Respublikasının Prezidentinin 23 may 2023-cü il tarixli 2147 saylı **"İctimai və sosial məqsədlər üçün yaradılmış fondların siyahısının təsdiq edilməsi haqqında"** Fərmanına əsasən ictimai və sosial məqsədlər üçün yaradılmış fondların siyahısı təsdiq edilmişdir. Vergi Məcəlləsinin 106.1.18-ci maddəsinə əsasən vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidenti) müəyyən etdiyi orqan (qurum) (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə mənfəət vergisindən azaddır. Qeyd olunan Fərmana əsasən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlar aşağıdakılardır:

  1. Heydər Əliyev Fondu
  2. Qarabağ Dirçəliş Fondu
  3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu). Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/54245
- **ACCA tərəfindən yeni təhsil mərkəzi yaradılmışdır.** Mərkəz, ACCA imtahanları üçün tədris materiallarına pulsuz çıxışı təmin edən rəqəmsal platformadır. Təhsil mərkəzinə dair daha ətraflı məlumat almaq üçün aşağıdakı keçiddən istifadə edə bilərsiniz:

  https://www.accaglobal.com/gb/en/student/your-study-options/studyhub/hub-support/acca-study-hub--how-to-access.html

## Bunu bilirdinizmi?

Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş vergi güzəşt və azadolmalarını əldə edən şəxslər tərəfindən vergidən azad olunan gəlirlərin bəyan edilməməsinə və ya azaldılmasına görə vergi ödəyicisinə bəyan edilməmiş və ya azaldılmış gəlirin (xərclər çıxılmadan) 6 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

# Tədbirlərimiz və yeniliklərimiz

### Accounting Bootcamp layihəsinin açılışı

2 May 2023-cü il tarixində mühasib peşəsinə marağı olan tələbələr və universiteti yeni bitirmiş məzunlar üçün Deloitte Azərbaycan şirkəti tərəfindən “Accounting Bootcamp” layihəsinə start verilmişdir. Proqramın əsas məqsədi tələbələrin mühasibatlıq sahəsində biliklərinin gücləndirilməsi və onların müvafiq sahədə mütəxəssis kimi yetişdirilməsinə kömək etməkdir.





### Azərbaycan Peşəkar Mühasiblər Klubu

Deloitte Azərbaycan şirkətinin təşəbbüsü ilə yaradılmış Azərbaycan Peşəkar Mühasiblər Klubunun növbəti görüşü 21 iyun 2023-cü il tarixində baş tutdu. Görüş MHBS (IFRS) 16 - İcarələr və hal-hazırda gündəmdə olan Peşəkar Mühasib Sertifikatının alınması mövzularına həsr edilmişdir. Tədbirin ilk hissəsində Deloitte Azərbaycan şirkətinin Audit və Əminlik Departamentinin Direktoru Elxan Əliyev MHBS 16-nın əsas aspektləri, onun tətbiqi və praktiki çətinlikləri barədə danışdı. İkinci hissədə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin nümayəndələri Elmar Abbasov və Emil Əliyev peşəkar mühasib sertifikatının alınması üçün imtahan prosesi barədə məlumat verdilər və iştirakçıların çoxsaylı suallarını cavablandırdılar.





### Maliyyə Nazirliyində peşəkar mühasib təşkilatları və aparıcı audit şirkətləri ilə görüş

14 iyun 2023-cü il tarixində Azərbaycan Respublikası Maliyyə Nazirliyində peşəkar mühasib təşkilatları və aparıcı audit şirkətlərinin nümayəndələri ilə görüş keçirilib. Tədbirdə çıxış edən maliyyə nazirinin müavini Azər Bayramov ötən müddət ərzində ölkəmizdə mühasibat uçotu sahəsində görülən işlər və qarşıda duran məsələlər barədə məlumat verib. Görüşdə Peşəkar Mühasib Təşkilatı kimi akkreditasiya olunmuş qeyri-kommersiya təşkilatlarının, həmçinin aparıcı konsaltinq şirkətlərinin nümayəndələri mühasibatlıq sahəsində fikir və təkliflərini səsləndirdilər. Deloitte Azərbaycan şirkətini Audit və Əminlik Departamentinin partnyoru Camal Həsənov və Vergi və Hüquq Departamentinin direktoru Rəna Xəlilova təmsil etdilər.



# Xidmətlərimiz və komandamız

## Sizə necə kömək edə bilərik?



### Vergi məsləhətləri

- Azərbaycan vergi qanunvericili üzrə məsləhət xidmətləri
- Beynəlxalq vergiqoyma və vergi və hüquq prizmasından effektiv biznes strukturlarının hazırlanması
- Vergi öhdəliklərinin yoxlanması və mümkün vergi risklərinin vaxtında aşkarlanması
- Dövlət vergi orqanları tərəfindən keçirilən yoxlama zamanı dəstək
- Transfer qiymətləndirmə ilə bağlı xidmətlər

### Biznes Proseslərinin Həlli

- **Maliyyə evi**
  - Mühasibatlıq
  - Vergi hesabatlılığı
  - Maliyyə nəzarəti
  - Uçotun qurulması və bərpası
- **Texnologiya və Robototexnika Mərkəzi** - Proqram təminatı vasitəsilə müxtəlif növ yüksək həcmli, daimi təkrarlanan əməliyyatların, robotlar tərəfindən qısa bir zamanda və səhvsiz icrası. Maliyyə və mühasibatlıq proqramının seçimi, texniki tapşırıqların yazılması və sınaq dövründə dəstək.
- **Əmək haqqı ilə bağlı xidmətlər** - Əmək haqqının hesablanması, əmək qanunvericiliyi üzrə məsləhət xidmətləri, xarici işçilər üçün yerli vergi qanunvericiliyi üzrə məlumatlandırma sessiyalarının keçirilməsi, əmək haqqı sisteminin qurulması və s.



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
nkerimov@deloitte.az



**Nərmin Aslanova**
**Vergi üzrə Partnyor**
naslanova@deloitte.az



**Rəna Xəlilova**
**Direktor**
rkhalilova@deloitte.az

**deloitte.az**

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 345,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr  pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.